# “YAŞIL DÜNYANIN QARABAĞ MODELİ”

## Elmi müsabiqə başa çatıb

Dekabrın 25-də “Yaşıl dünya naminə həmrəylik ili” və “Yaşıl UNEC ili” çərçivəsində UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi və Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsinin (TMİƏT) təşkilatçılığı, “Baku Steel Company” QSC-nin dəstəyi ilə “Yaşıl dünyanın Qarabağ modeli” adlı ümumrespublika elmi məqalə müsabiqəsinin yekununa həsr olunmuş tədbir keçirilib.



Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin universitetdəki büstü və Şəhidlərin xatirəsinə həsr olunmuş Memorial-Xatirə Kompleksinin önünə gül dəstələri qoyub, dərin ehtiramlarını ifadə ediblər. Daha sonra tədbirdə Dövlət Himnimiz səsləndirilib və şəhidlərimizin xatirəsi yad edilib.

Tədbirin moderatoru - UNEC TMİƏT şöbəsinin müdiri Rəna Hüseynova bildirib ki, “Yaşıl dünya naminə həmrəylik ili” və “Yaşıl UNEC ili” çərçivəsində təsdiq olunmuş Tədbirlər Planının icrasını təmin etmək məqsədilə UNEC Tədqiqat Mərkəzləri tərəfindən bu il ərzində bir çox silsilə tədbirlər təşkil olunub.

Daha sonra çıxış edən UNEC-in elm və innovasiyalar üzrə prorektoru professor Rövnəq Rzayev tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları Vüqar Bayramov və Tural Gəncəliyev Qarabağın yaşıl iqtisadiyyat quruculuğunun iqtisadi-siyasi aspektlərini xüsusilə vurğulayıblar. Çıxışlarda ali təhsil müəssisələrinin professor-müəllim heyətinin, gənc tədqiqatçıların müsabiqədə iştirakı yüksək qiymətləndirilib. Qarabağda yaşıl iqtisadi zonanın yaradılması, infrastrukturun bərpası yollarına həsr olunmuş elmi tədqiqatların əhəmiyyətindən bəhs edən natiqlər Azərbaycanın yaşıl dünya modelinin bütün dünya üçün örnək olduğunu, bir sıra xarici qüvvələrin riyakar səylərinə baxmayaraq ölkəmizdə COP29 tədbirinin böyük uğurla həyata keçirildiyini qeyd ediblər.

UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri professor Şəfa Əliyev və “Baku Steel Company” QSC-nin nümayəndəsi Şeyla Hacıyeva Universitet-sənaye əməkdaşlığının genişləndirilməsinin vacibliyini, gənclərin elmi-tədqiqatlara cəlb olunmasının stimullaşdırılmasının əhəmiyyətini bildiriblər.

Müsabiqədə baxılan elmi istiqamətlər ilboyu Azərbaycanda uğurla reallaşdırılan və qlobal iqlim dəyişiklikləri ilə bağlı problemlərə həsr olunan COP29 kontekstində müstəsna əhəmiyyət kəsb edib. Müsabiqə iştirakçılarının təqdim etdikləri məqalələrdə alternativ enerji resurslarının formalaşdırılması, “yaşıl” iqtisadiyyat quruculuğunun tərkib elementlərinin müəyyənləşdirilməsi, Qarabağın “yaşıl” iqtisadiyyat və “yaşıl” enerji sahəvi strukturunun formalaşdırılması, xüsusilə günəş enerjisindən səmərəli istifadə edilməsi, su mənbələrinin ehtiyatlarının qiymətləndirilməsi, regionun ekoloji problemlərinin həll olunması yolları daha çox aktuallıq təşkil edib.

Müsabiqənin Təşkilat Komitəsinin ünvanına ölkənin müxtəlif elm və ali təhsil müəssisələrindən, tədqiqat institutlarından və mərkəzlərindən, müstəqil tədqiqatçılardan 90 məqalə daxil olub.

Müsabiqədə iştirak edən müəlliflərin coğrafi dairəsi ölkəmizin əksər universitetlərini və elmi-tədqiqat müəssisələrini, o cümlədən Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xəzər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Biznes Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Elm və Təhsil Nazirliyinin akademik H.Əliyev adına Coğrafiya İnstitutu, Elm və təhsil Nazirliyinin Təbii Ehtiyatlar İnstitutu, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutu, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi, Azərbaycan Tibb Universiteti, İqtisadiyyat Nazirliyinin İqtisad Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Dövlət Gömrük Akademiyası, Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunu əhatə edib.

Müsabiqənin yekunu olaraq, professor-müəllim heyəti və doktorant, magistr və tələbələr üçün iki nominasiya üzrə hər bir nominasiyada ilk 3 yeri tutanlara pul mükafatları verilib. Bundan əlavə, hər iki nominasiya üzrə 13, cəmisi 26 nəfər elmi məqalə müsabiqəsi iştirakçıları sertifikatlara layiq görülüb. Ümumilikdə 80 məqalənin toplu şəkildə elektron - kitab formatında nəşr edilməsi və UNEC-in rəsmi saytında yerləşdirilməsinə qərar verilib.

Qeyd edək ki, müsabiqənin məqsədi ölkənin ali təhsil və elmi-tədqiqat müəssisələrinin professor-müəllim heyətinin, doktorant, magistr və tələbələrinin Qarabağın iqtisadi quruculuğunda ekoloji problemlərin və “yaşıl” dünya konsepsiyasının mahiyyətinin öyrənilməsi, regionun təbii resurslarından qənaətlə istifadə edilməsi, “yaşıl” enerji infrastrukturunun yaradılması və qlobal ekoloji problemlərin həlli yolları üzrə tədqiqatların aparılmasının təşviq edilməsindən ibarətdir.

**Oruc MUSTAFAYEV**